# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 252/7** **25 iyun 2014-cü il**

**"Fortrust Audit" məhdud məsuliyyətli cəmiyyətinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması barədə**

Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Yaşar Namazəliyevin məruzəsini dinləyərək və "Fortrust Audit" məhdud məsuliyyətli cəmiyyətinin 25 aprel 2013-cü il tarixdən 01 may 2014-cü il tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması barədə" tərtib edilmiş aktı müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

**1.** Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Yaşar Namazəliyevin məruzəsi və "Fortrust Audit" məhdud məsuliyyətli cəmiyyətinin 25 aprel 2013-cü il tarixdən 01 may 2014-cü il tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması barədə" tərtib edilmiş akt nəzərə alınsın (əlavə olunur).

**2.** "Fortrust Audit" MMC tərəfindən (direktor Vəli Əkbər oğlu Əliyev) aşağıdakı qanunlarının və digər normativ sənədlərin tələblərinin pozulduğu qeyd edilsin:

a) Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini sığortalamamışdır;

b) Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinin və Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarının tələbləri pozularaq cəmiyyətin 2013-cü il üzrə maliyyə hesabatlarının auditor yoxlanılması keçirilməmişdir;

c) 25 dekabr 2013-cü il tarixdən hal-hazırkı dövrədək cəmiyyətdə auditor fəaliyyət göstərməmişdir;

d) 2013-cü ilin yekununa dair təsisçiyə divident hesablanmamışdır.

e) Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimata və Palata Şurasının 2007-ci il 29 dekabr tarixli 188/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət etməmiş, 25 aprel 2014-cü il tarixdə Cəmiyyət auditor fəaliyyətini həyata keçirilməsi ilə bağlı lisenziyasını

Auditorlar Palatasına geri qaytarmış və həmin tarixə 5219,00 manat üzvlük haqqı üzrə borcu ödənilməmişdir.

**3.** Beləliklə "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini pozaraq Cəmiyyət öz fəaliyyətini 2013-cü ildə sığortalamadığına, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinin və Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarının tələbləri pozularaq cəmiyyətin 2013-cü il üzrə maliyyə hesabatlarının auditor yoxlanılması keçirilmədiyinə, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimata və Palata Şurasının 2007-ci il 29 dekabr tarixli 188/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimat"ın tələblərinə riayət etməyərək 2014-cü il üçün Auditorlar Palatasına üzvlük haqqını ödənilmədiyinə görə "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamənin VII bölməsini, "Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin hüquq və vəzifələri haqqında" Əsasnamənin 2.5; 4.2 maddələrini rəhbər tutaraq, "Fortrust Audit" məhdud məsuliyyətli cəmiyyətinə yuxarıda aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə 3 (üç) ay müddətində vaxt verilsin.

**4.** Palata Şurasının qərarı barədə "Fortrust Audit" məhdud məsuliyyətli cəmiyyətinin direktoru Əliyev Vəli Əkbər oğluna məlumat göndərilsin.

**5.** Qərar Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V. NOVRUZOV**